# ODLAR YURDU UNİVERSİTETİ




## PROFESSOR-MÜƏLLİM VƏ TƏLƏBƏLƏR ÜÇÜN

# YADDAŞ KİTABÇASI

**Bakı 2013/2014**

## §1. Odlar Yurdu Universiteti haqqında ümumi məlumat

Odlar Yurdu Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 iyul 1995-cı il tarixli, 86 saylı qərarı ilə dövlət qeydiyyatından keçmişdir. Yarandığı gündən etibarən, universitet rəhbərliyi gənc dövlətimiz üçün ixtisaslı kadrlar hazırlamağı əsas vəzifə kimi qarşıya məqsəd qoymuşdur.

Universitetdə tədris prosesi yüksək səviyyədə qurulmuşdur. Tədrisə yüksək ixtisaslı tanınmış alimlər, pedaqoqlar cəlb edilmişdir. Onlardan 1 nəfəri Azərbaycan Respublikası Milli EA-nın akademiki, 19 nəfəri elmlər doktoru və professor, 125 nəfər elmlər namizədi, dosent, baş müəllim və müəllimdir.

Universitetin müasir tələblərə cavab verən maddi-texniki bazası, ixtisaslar üzrə müasir avadanlıqlarla təmin edilmiş laboratoriya və fənn kabinetləri, yeni modelli kompüterlərlə təchiz olunmuş kompüter zalları, dünyanın qabaqcıl kitabxanaları ilə İnternet əlaqəsi saxlamaq imkanı verən elektron kitabxanası, oxu zalı, ixtisaslaşdırılmış auditoriyaları, tibb məntəqəsi, yeməkxanası, idman zalları və s. vardır.

Universitetdə təhsilin keyfiyyət standartlarına nail olmaq, keyfiyyətin təmin edilməsi üzrə planlaşdırılmış ardıcıl proseslərin təminatını həyata keçirmək, təhsildə davamlı irəliləyişə nail olmaq üçün keyfiyyətin artırılması və təhsildə keyfiyyətə nəzarəti həyata keçirmək məqsədilə Odlar Yurdu Universitetində Keyfiyyətin Təminatı Mərkəzi yaradılmışdır.

Keyfiyyətin Təminatı Mərkəzinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

- Tədris proqramlarının məzmununun qiymətləndirilməsi;
- Müəllimin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi;
- Tələbələrdə əldə olunmuş bilik və bacarıqların keyfiyyətinin qiymətləndirilməsi;
- Tədris texnologiyasının qiymətləndirilməsi.

Tələbələrin universitetdəki təhsil prosesinə səmərəli köməklik göstərmək məqsədilə onlar üçün ayrıca kuratorluq sistemi yaradılmışdır; bu sistem həm əldə olunan bilik və vərdişlərin mənimsənilməsində, həm də onların, təhsilin keyfiyyətinə təsir göstərən müxtəlif məsələlərin həllində tələbələrə operativ yardım göstərməyə imkan verir. Hər bir kurator təxminən 20 tələbəni əhatə edir. Onlar öz işləri ilə tyutorlara həm köməklik edir, həm də onların gördüyü işin daha da səmərəli olmasına vasitəçilik edirlər.

## §2. OYU-nun nəzdində fəaliyyət göstərən fakültə, kafedra, şöbə və proqramlar

*OYU-nun Təhsil Səviyyələri:*

- Bakalavr səviyyəsi
- Magistratura səviyyəsi
- Doktorantura səviyyəsi

*Odlar Yurdu Universitetində 5 fakültə fəaliyyət göstərir:*

- İqtisadiyyat və Biznes
- Tərcümə və Pedaqoji
- Riyaziyyat, İnformatika və Texniki
- Hüquq və Beynəlxalq Münasibətlər
- Tibb və Biologiya

*Universitetin kafedraları:*

- İqtisadiyyat və Menecment
- Biznesin idarə edilməsi, maliyyə və marketinq
- Xarici dillər və Tərcümə
- Riyaziyyat, İnformatika və Texniki fənlər
- Sosial və İctimai fənlər
- Dil, Ədəbiyyat və Jurnalistika
- İbtidai təhsilin Pedaqogika və Metodikası
- Mülki hüquq, Cinayət hüququ və Cinayət prosesi
- Dövlət hüququ və Beynəlxalq münasibətlər
- Somatik xəstəliklər
- Cərrahi xəstəliklər
- Fiziki-kimyəvi təbabət və reabilitasiya
- Profilaktik tibb elmləri
- Stomatologiya
- Bioloji və ekoloji fənlər

*Magistratura və Doktorantura şöbəsi*

*Qiyabi və ömürboyu təhsil şöbəsi*

## *Bakalavr pilləsi*

*Qəbul olduğu ixtisasdan asılı olmayaraq, tələbələr öz istəklərinə görə azərbaycan və rus bölmələrində, həmçinin, I və II qruplar üzrə bütün ixtisaslarda II kursdan başlayaraq arzu edənlər ingilis bölməsində də təhsil ala bilərlər.*

**2013/2014-cü tədris ili üçün bakalavr pilləsi üzrə ixtisaslar:**

| I qrup | III qrup |
|---|---|
| Riyaziyyat və informatika müəllimliyi | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| Kompyuter mühəndisliyi | Xarici dil müəllimliyi (ingilis dili) |
| Ekologiya mühəndisliyi | Tərcümə (ingilis dili) |

Neft-qaz mühəndisliyi

| II qrup | IV qrup |
|---|---|
| Beynəlxalq münasibətlər | Kimya və biologiya müəllimliyi |
| Dünya iqtisadiyyatı | |
| Mühasibat uçotu və audit | |
| Biznesin idarə edilməsi | |
| Maliyyə | |

- ✓ **İngilis bölməsində (II qrup üzrə) təhsil BBA proqramı üzrə ABŞ-ın Linkoln Universiteti ilə Odlar Yurdu Universiteti arasında birgə əməkdaşlıq müqaviləsinə əsasən aparılır. Dərslər Linkoln Universiteti ilə OYU tərəfindən birgə hazırlanmış tədris proqramlarına əsasən həyata keçrilir.**
- ✓ I – ixtisas qrupunun dərsləri Odlar Yurdu Universiteti ilə "Microsoft IT Academy " tərəfindən birgə hazırlanmış tədris proqramına əsasən həyata keçirilir və sonda məzunlara "Microsoft IT Academy " – nin beynəlxalq səviyyəli sertifikatları verilir.
- ✓ Tələbələrin ingilis dili səviyyəsini nəzərə alaraq əlavə intensiv hazırlıq kursları təşkil olunur.
- ✓ Universitetdə təhsil Boloniya prosesinə uyğun aparılır. Mövcud razılaşmaya əsasən tələbələr öz təhsillərini ABŞ-ın, Avropanın, Türkiyənin, Şimali Kiprin və Gürcüstanın unversitetlərində davam etdirə bilərlər.

## *Magistr pilləsi*

**2013/2014-cü tədris ili üçün magistratura pilləsi üzrə ixtisaslar:**

| İxtisasın adı | İxtisasın adı |
|---|---|
| **Dil və ədəbiyyat müəllimliyi (azərbaucan, rus və ingilis dili):**<br>-Dil və ədəbiyyatın tədrisi metodikası və metodologiyası<br>**Xarici dil müəllimliyi (ingilis dili):**<br>-Xarici dilin tədrisi metodikası və metodologiyası | **Ekologiya mühəndisliyi:**<br>-Ətraf mühit və neft sənayesi<br>**Kompyuter mühəndisliyi:**<br>- Kompyuter mühəndisliyi<br>**Neft –qaz mühəndisliyi:**<br>-Neft və qaz yataqlarının işlənməsi |
| **Beynəlxalq münasibətlər:**<br>- Beynəlxalq münasibətlər və diplomatiya | **Biologiya müəllimliyi:**<br>-Biologiya fənninin tədrisi metodikası və metodologiyası |

**2013/2014-cü tədris ili üçün MBA Proqramı üzrə ixtisaslar:**

Azərbaycan və ingilis bölmələri üzrə kadr hazırlığı: Odlar Yurdu Universiteti, Linkoln Universiteti (ABŞ), Qafqaz Beynəlxalq Universiteti (Gürcüstan) ilə birgə əməkdaşlıq müqaviləsinə əsasən aşağıdakı ixtisaslar üzrə həyata keçirilir

| | |
|---|---|
| **Maliyyə:**<br>-Bank işi, maliyyə nəzarəti və audit | **Dünya iqtisadiyyatı:**<br>-Beynəlxalq İqtisadi Münasibətlər<br>-Beynəlxalq maliyyə və valyuta kredit münasibətləri |
| **Biznesin idarə edilməsi:**<br>-Biznesin təşkili və idarə edilməsi (Beynəlxalq biznes üzrə)<br>**Marketinq:**<br>-Marketinq (əczaçılıq üzrə) | **İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi:**<br>-İdarəetmədə informasiya sistemləri |

Magistraturanın Kompyuter mühəndisliyi və MBA Proqramının İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasında dərslər OYU ilə “Microsoft İT Academy” tərəfindən birgə hazırlanmış tədris proqramına əsasən həyata keçirilir və sonda onlara magistr diplomundan əlavə “Microsoft İT Academy”-nın beynəlxalq səviyyəli sertifikatı verilir.

Universitetdə magistrantların, bank və maliyyə sahəsində çalışacaq mütəxəssislərin bank işi üzrə yüksək keyfiyyətli praktiki bacarıqlarının daha da inkişaf etdirilməsi məqsədilə OYU Bank Tədris Mərkəzi fəaliyyət göstərir.

**2013/2014-cü tədris ili üçün doktorantura pilləsi üzrə ixtisaslar:**

1. Mikrobiologiya
2. Texnoloji proseslərin və istehsalın avtomatlaşdırılması və idarə edilməsi
3. Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi
4. Dil nəzəriyyəsi

## §3. OYU-nun professor-müəllim heyəti

OYU-nun aparıcı qüvvəsi onun professor-müəllim heyətidir**.** Odlar Yurdu Universitetinin professor-müəllim heyətinin əsas hüquq və vəzifələri əmək müqaviləsində əks olunmuşdur. Müəllim universitetin tələbə icması üçün nümunə və rəhbər olmalıdır.

Tədris prosesində müəllimin məsuliyyəti və onun universitetin tələbələrinə təsiri xeyli dərəcədə kuratorluq sistemi vasitəsi ilə də həyata keçirilir. Fəaliyyətin bu interaktiv sahəsinin məğzi və əsas funksiyaları kurator haqqında əsasnamədə əks olunmuşdur.

*Odlar Yurdu Universitetindəki tədris prosesində müəllim ən mühüm rol oynayır və onun inkişafı üçün aşağıdakı imkanlar yaradılmışdır:*

- Öz elmi və pedaqoji potensialını inkişaf etdirmək və həyata keçirmək;
- Öz elmi tədqiqat işlərini universitetin, Azərbaycan Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş Elmi-Pedaqoji Xəbərlər jurnalında dərc etdirmək;
- Universitetin vəsaitləri hesabına nəşr edilə biləcək metodiki vəsaitləri işləyib-hazırlamaq;
- Universitetin xətti ilə Azərbaycanda və xaricdə keçirilən seminarlarda, konfranslarda və treninqlərdə iştirak etmək;
- Elmi dərəcəsi olmayan müəllimlər universitetin doktoranturasına daxil ola bilərlər;
- Bütün müəllimlər "fakültənin ən yaxşı müəllimi" və "universitetin ən yaxşı müəllimi" müsabiqəsində iştirak edə bilərlər. Qaliblər mükafatlandırılırlar;
- OYU-nun tərəfdaşı olan xarici universitetlərdə (ABŞ, Almaniya, İtaliya, Latviya, Ukrayna və Polşa kimi ölkələrdə) staj keçmək;
- İngilis və digər dillərdə danışıq və tədrisetmə vərdişlərini təkmilləşdirmək məqsədilə universitetin nəzdindəki dil öyrənmə kurslarında iştirak etmək;
- Elmi-pedaqoji fəaliyyətdə universitetdəki müasir İKT texnologiyaları və kitabxana resurslarından, o cümlədən WiFi xidmətlərindən geniş istifadə etmək.

*Universitetinin professor-müəllim heyətinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:*

- Pedaqoji və elmi proseslərin yüksək səmərəliliyini təmin etmək, tədris və metodiki işi yüksək səviyyədə aparmaq, aspirantlar, tələbələr və dinləyicilərdə müstəqilliyi, təşəbbüskarlığı, təhsilə vicdanlı münasibəti və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək;

- Təhsilalanlarda seçdikləri hazırlıq istiqaməti (ixtisas) üzrə peşəkar keyfiyyətlərini, vətəndaş mövqeyini, müasir sivilizasiya və demokratiya şəraitində çalışmaq və yaşamaq qabiliyyətini formalaşdırmaq;
- Universitetdə qəbul edilmiş ictimai asayiş və davranış qaydalarına riayət etmək;
- Tədris prosesinin dövlət tərəfindən müəyyən edilmiş təhsil standartlarına uyğunluğunu təmin etmək;
- Peşəkar biliklərini daim artırmaq, pedaqoji ustalıqlarını və elmi iş aparmaq metodlarını təkmilləşdirmək;
- Təhsilalanların şəxsi ləyaqətinə hörmətlə yanaşmaq, onların sağlamlığı, mədəni və fiziki inkişafına qayğı göstərmək.
- Fərdi iş planını yerinə yetirmək.

## §4. OYU-nun tələbələri üçün yaradılmış imkanlar

OYU-nun tələbələri onun əsas sərvətidir. Tələbələrin hərtərəfli inkişafı üçün universitetdə aşağıdakı imkanlar yaradılmışdır:

- Universitetin xətti ilə istər Azərbaycanda, istərsə də xaricdə keçirilən seminarlarda və treninqlərdə, o cümlədən Erasmus Mundus proqramı çərçivəsində xaricdə təhsil almaq.
- Respublikada və xaricdə tələbələr üçün təşkil olunmuş olimpiada və müsabiqələrdə iştirak etmək.
- Bakalavriatı bitirən tələbələr universitetin magistraturasına daxil ola bilərlər.
- Universitetin magistrləri universitetin doktoranturasına daxil ola bilərlər.
- Yuxarı kurs tələbələri öz məqalələrini Elmi-Pedaqoji Xəbərlər jurnalında dərc etdirə bilərlər.
- Tələbələrin, natamam iş günü hesabı ilə universitetdə ödənişli işə düzəlmək imkanı var.
- Tələbələr, universitetin tələbə gənclər təşkilatının təşkil etdiyi diskussiya klubları və digər tədbirlərdə iştirak edə bilərlər.
- Tələbələrin, xarici dillərin öyrənilməsi, bank işi, kompüter proqramları və texnologiyaları və digər sahələrdə sertifikatlaşdırılmış kurslarda təhsil alaraq peşəkar vərdişlər əldə etməklə bağlı əlavə xidmətlər almaq imkanı var. Bu məqsədlə, OYU, Azərbaycan Bank Tədris Mərkəzi, Bakı Təhsil Məlumat Mərkəzi, Anqlo-Amerikan işədüzəltmə və peşəkar təhsil şirkəti və digər qurumlarla xüsusi əməkdaşlıq müqavilələri imzalamışdır.
- OYU-nun tələbələri, universitetin kitabxana resurslarından pulsuz istifadə etmək imkanına malikdirlər.

*Universitetin tələbələrinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:*

- Seçdikləri hazırlıq istiqaməti və ya ixtisas üzrə nəzəri biliklərə, praktiki vərdişlərə və müasir araşdırma metodlarına ardıcıl və dərindən yiyələnmək;
- Kollektivdə işin təşkili və aparılmasına dair zəruri biliklərə və vərdişlərə yiyələnmək, özlərinin təhsil, elmi və mədəni səviyyəsini daim artırmaq, universitetin ictimai həyatında iştirak etmək;
- Auditoriya təlim məşğələlərində iştirak etmək, müvafiq tədris planlarında və kursların işçi proqramlarında nəzərdə tutulmuş bütün növ tapşırıqları müəyyən edilmiş dövrlərdə yerinə yetirmək;
- Universitetdə qəbul edilmiş ictimai asayiş və davranış qaydalarına riayət etmək;
- Universitetin idarə heyətinə, müəllimləri və əməkdaşlarına, bir-birinə hörmətlə yanaşmaq, tədris prosesinin aparılmasına, universitetin struktur bölmələrinin işinə mane ola biləcək hərəkətlərə yol verməmək, universitetdə müəyyən edilmiş qaydaların pozuntusunun qarşısını almaq üzrə müvafiq səlahiyyətləri olan, universitetin idarə heyəti işçilərinin və digər əməkdaşlarının qanuni tələblərini dərhal yerinə yetirmək;
- Universitetin otaqlarına, tədris-laboratiya avadanlığına, cihazlara, dərs vəsaitlərinə, kitablarına və digər əmlakına qayğı və səliqə ilə yanaşmaq, onların korlanmasına, zədələnməsinə və itməsinə yol verməmək, universitetin otaqlarında təmizliyə və səliqəyə riayət etmək.

Tələbələrin, universitetdə təhsillərini başa vurduqdan sonra işədüzəlmə məqsədilə *Biznes, İnnovasiya və Karyera Mərkəzinin* xidmətlərindən istifadə etmək imkanı var. Mərkəzin əsas vəzifəsi, universitet məzunlarına bazar iqtisadiyyatı şəraitində öz yerlərini tapmaqda və onların əmək bazarına uyğunlaşmasında köməklik göstərilməsi, o cümlədən məşğulluq probleminin həllindən ibarətdir. Karyera mərkəzinin əsas fəaliyyət istiqamətləri bunlardır: universitet məzunlarının rəqabət qabiliyyətinin gücləndirilməsində, həmçinin stajkeçmə və işədüzəlmə proseslərində məzunlara köməklik göstərmək.

## §5. Ümumi qaydalar

Dərs ili payız və yaz semestrlərindən ibarətdir. Payız semestrinin dərsləri sentyabrın 15-dən dekabrın 29-dək davam edir. Bu semestrin imtahan sessiyası yanvarın 5-dən yanvarın 26-dək keçirilir. Yaz semestrinin dərsləri isə fevralın 16-dan mayın 31-dək davam edir. Bu semestrin imtahan sessiyası isə iyunun 3-dən 24-dək keçirilir.

I kurslar iyunun 24-dən sentyabrın 15-dək tətilə buraxılırlar. Bu müddət ərzində II və III kurs tələbələri ixtisaslarından asılı olaraq təcrübə keçirlər. IV kurslar may ayında buraxılış qabağı və ya pedaqoji təcrübə keçirlər, sonra isə onlar iyunun 10-dan 30-dək Yekun Dövlət Buraxılış İmtahanına (YDBİ) buraxılırlar.

Tədris prosesində tələbələr dərslərə gecikməməli, dərslərdən üzrsüz səbəbə görə qalmamalıdırlar. Tədris olunan fənnin ümumi saatının 20%-dən artıq dərs buraxan tələbə, həmin fəndə iştirakını dayandırır və növbəti semestrlərdə bu fənnin kredit dəyərini ödəyərək həmin fənni yenidən mənimsəyir.

Kredit sistemi ilə təhsil alan tələbələr imtahan verəcəyi fənlərdən müəyyən edilmiş müddət ərzində yalnız bir dəfə imtahan vermək hüququna malikdirlər.

Eyni zamanda kredit sistemində təhsil alan tələbələr yay imtahan sessiyasında üzrlü səbəbdən iştirak edə bilmədikləri imtahanları sentyabr ayının 5 - dən 20 - nə kimi verə bilərlər.

Qış imtahan sessiyasında üzrlü səbəbdən iştirak edə bilmədikləri imtahanları tələbələr fevral ayının 9-dan 25-nə kimi verə bilərlər.

Qeyd edilən müddət ərzində imtahanda iştirak etməyən tələbələr üçün həmin fənn akademik borc (yəni kəsr) hesab olunur.

Belə ki, akademik borcu olan tələbələr həmin fənnin dəyərini yenidən ödəməklə akademik saatlara uyğun tədris proqramını mənimsədikdən sonra imtahan vermək hüququna malikdirlər.

Digər Universitetlərdən köçürülmə yolu ilə daxil olan tələbələr tədris planlarındakı akademik fərqləri ləğv etmək üçün bu fənlərin ödənişini etməklə akademik saatlara uyğun tədris proqramını keçdikdən sonra imtahan vermək hüququna malikdirlər.

Hər bir fakültədə ən layiqli tələbəyə adlı təqaüd verilir. Yaxşı oxumaqla universitetin ictimai həyatında fəal iştirak edən tələbələr fəxri fərmanlarla təltif olunur, şəkilləri şərəf lövhəsində asılır.

Fərqlənmə diplomu bütün təhsil dövrü ərzində verilən imtahanların 75%-dən yuxarı əla qiymət alan (imtahan nəticələrinin yerdə qalan 25%-dən yaxşı qiymətlər almaq şərti ilə və Yekun Buraxılış Dövlət imtahanı əla olmalıdır) tələbələrə verilir.

2005-ci ildən Bolonya təhsil sisteminə qoşulan Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət və özəl ali təhsil müəssisələrinin qarşısına, bu sistemin tələblərinə uyğun olan müvafiq vəzifələr qoyulmuşdur. Bunlardan ən önəmlisi isə təhsilin kredit sisteminə keçirilməsidir ki, onun da mahiyyəti aşağıda göstərilənlərdən ibarətdir:

Ali təhsil müəssisəsinə istənilən ixtisas üzrə daxil olan tələbə tədris prosesini müvəffəqiyyətlə başa vurub, diplom əldə etmək istəyirsə, müəyyən edilmiş fənlər üzrə imtahanlar, kurs işləri, təcrübələr verməlidir. Tədris illəri ərzində keçiriləcək olan fənlər tədris saatlarına müvafiq olaraq kreditlərə bölünür və əvvəlki sistemdən fərqli olaraq tədris olunacaq fənlər tədris planında nəzərdə tutulmuş ardıcıllıqla tələbə tərəfindən öz istəyi ilə seçilir. Yəni hər tələbə tədris semestri ərzində 4-7 fənn seçə bilər və bu zaman fənlərin tədrisi ardıcıllığına dəqiq riayət olunmalıdır. Məs: «Marketinq» fənnini tam mənimsəyib müsbət nəticə qazanmadan, «Beynəlxalq marketinq» fənni tədris oluna bilməz.

Hər bir fənn öz kredit saylarına müvafiq dəyərə malik olur. Fənn üzrə kurs tam mənimsədildikdən sonra, imtahan təyin olunur. İmtahanı müvəffəqiyyətlə verə bilməyən tələbə, növbəti semestrlərdə yenidən həmin fənn üzrə saatları dinləyir və təkrar imtahan verir.

Bu qayda ilə nəzərdə tutulan bütün kreditləri toplamış tələbəyə, bakalavr yaxud magistr dərəcəsi üzrə standartlara uyğun diplom verilir.

Kredit sisteminin üstün cəhətlərindən biri də aşağıdakılardan ibarətdir.

Tələbə təhsil aldığı müddət ərzində Boloniya sisteminə qoşulan dövlətlərin ali təhsil müəssisələrinin birində qazandığı kreditlər digərlərində də öz qüvvəsini saxlayır.

Dünyanın inkişaf etmiş ölkələrində bu sistem uzun illərdir ki, tətbiq olunur və sınaqlardan müvəffəqiyyətlə çıxmışdır. Çünki bu sistem tələbəyə yüksək səviyyədə biliklər əldə etməyi və yüksək hazırlıqlı mütəxəssis kimi yetişməyi nəzərdə tutur.

Odlar Yurdu Universitetinin ən əsas amalı məzunlarına yüksək səviyyədə elm, bilik və savad vermək, mükəmməl mütəxəssis kimi yetişdirməkdir.

Tələbələr Universitetə daxil olduqları andan «tələbə vəsiqəsi»-ni yaxalarından asmalıdırlar. Əks halda həmin tələbə Universitetin auditoriyalarına buraxılmır. Yoxlama–imtahan sessiyaları zamanı tələbə bileti, yaddaş kitabçası və təqvim-mövzu planı olmadan onlardan yoxlama və imtahan qəbul edilmir. Yoxlama və imtahanların nəticələri tələbənin fərdi iş planında öz əksini mütləq tapmalıdır.

Hər bir tələbə dərsin keyfiyyətli keçməsinə auditoriyada şərait yaratmalı, dərsin gedişinə mane olmamalıdır.

Tədrisin gedişi zamanı hər hansı müəllim öz davranışı və ya biliyi ilə auditoriyanı təmin edə bilmirsə, bu barədə tələbələr mütləq dekanlığa, Universitetin rəhbərliyinə məlumat verməlidirlər.

Deyilənlərlə yanaşı hər bir tələbə təmizliyə, səliqəyə diqqətli olmalıdır. Universitetin, o cümlədən fakültə auditoriyalarının maddi-texniki durumunun həmişə yaxşı qalmasına əhəmiyyət verməlidir. Tələbə tərəfindən xarab edilən maddi-texniki baza elementləri, yəni qapı, pəncərə, yazı lövhəsi , yazı masası, stul və s. üçün tələbə maliyyə cəhətdən cəzalandırılır. Maddi-texniki bazanı xarab edən şəxs müəyyən edilmədiyi halda həmin auditoriyada dərs keçmiş qrup və ya birləşmə cəzalandırılır. Belə xoşagəlməz halların qarşısının alınmasında hər bir tələbə, qrup nümayəndəsi, tədris edən müəllim bilavasitə yardımçı olmalıdırlar. Aparılan təcrübə məşğələlərinin və oxunan mühazirələrin daha da keyfiyyətliliyini təmin etməkdə dekanlıq tərəfindən hər gün təyin edilmiş növbətçilər yardımçı rolunu oynayırlar.

Dərs vaxtı auditoriyalardan tələbələrin azad olunaraq dəhlizlərdə gəzmələrinə imkan yaradılmamalıdır.

Qrup nümayəndəsi tədrisin, təlim-tərbiyənin gedişinə dekanlığa yaxından kömək etməlidir.

*Tələbələrin və valideynlərin çoxsaylı xahişlərini nəzərə alaraq, təhlükəsizlik və etik normala riayət olunması məqsədilə OYU-da müşahidə kameraları quraşdırılmışdır. Bu, yaranmış problemləri və ya anlaşılmazlıqları operativ surətdə aradan qaldırmağa, bununla da tələbələr və müəllimlər arasındakı münasibətləri daha etibarlı etməyə imkan verir..*

## §6. Odlar Yurdu Universitetində kredit sistemi

Odlar Yurdu Universitetində kredit sistemi ilə təhsilə 2005-2006-cı tədris ilindən keçilmişdir. Bu sistem aşağıdakı ixtisaslarda tətbiq olunur:

- kompüter riyaziyyatı;
- tətbiqi riyaziyyat;
- ekologiya;
- beynəlxalq iqtisadi münasibətlər;
- biznesin təşkili və idarəedilməsi;
- biznesin idarəedilməsi;
- menecment;
- vergilər və vergitutma;
- azərbaycan dili və ədəbiyyatı müəllimliyi;
- aqronomluq;
- neft və qaz mühəndisliyi;
- maliyyə;
- ibtidai təhsilin pedaqogika və metodikası;
- jurnalistika;
- tərcümə (ingilis dili);
- xarici dil müəllimliyi;
- beynəlxalq münasibətlər;
- mühasibat uçotu və audit;
- dünya iqtisadiyyatı;
- biologiya müəllimliyi;
- riyaziyyat və informatika müəllimliyi;
- kompüter mühəndisliyi;
- ekologiya mühəndisliyi.

Bu ixtisaslarda təhsil alan tələbələr ixtisas almaq üçün tədris planında nəzərdə tutulan fənləri mənimsəməli və imtahan verib tələb olunan miqdarda kredit toplamalıdırlar. Kredit saatları əsas etibarilə fənn yükünü əks etdirir (*hər 15 saat 1 kreditdir*).

*Odlar Yurdu Universitetində bakalavr dərəcəsi almaq üçün hər semestrə maksimum 30, ildə 60, cəmi isə 200 – 240 kredit toplamaq lazımdır.*

Tələbələr yaz və payız semestrlərindən əlavə, yay semestrlərində də (cəmi 6 həftə) iştirak etməklə kredit qazana bilərlər.

Universitetin I kursuna daxil olan tələbələr və onların valideynləri ilə tədris ilinin başlanğıcında ənənə halını alan görüş keçirilir. Bu görüşdə tələbələr və onların

validеynləri kredit sistemi və Odlar Yurdu Universitetində tədris prosesi barədə ətraflı məlumatlandırılırlar. Bundan əlavə fakültə dekanlıqları, tyutorlar və kuratorlar tərəfindən mütəmadi olaraq izahat işləri aparılır.

## §7. Biliyi qiymətləndirmə sistemi

Odlar Yurdu Universitetində 100 ballıq qiymətləndirmə sistemi tətbiq olunur. Hər bir fənn üzrə semestr ərzində 5 həftədən bir olmaqla 3 dəfə aralıq imtahanı keçirilir.

Aralıq imtahanı yazılı şəkildə, fənni tədris edən müəllim tərəfindən aparılır. Bir aralıq imtahanından tələbə maksimum 10 bal toplaya bilər.

Bundan əlavə tələbə semestr ərzində dərslərdə iştirakına görə 5, davranışına görə isə yenə 5 bal qazana bilər. Beləliklə, tələbə imtahana qədər ən çoxu 40 bal toplaya bilər.

Odlar Yurdu Universitetində semestr imtahanları imtahan üçün nəzərdə tutulmuş, kompüterləşdirilmiş, yerli şəbəkəyə qoşulmuş xüsusi otaqlarda kompüter əsaslı test şəklində aparılır.

*Hər bir bilet 20 sualdan ibarətdir. Hər düzgün sualın qiyməti 3 baldır. Beləliklə, tələbə imtahan zamanı ən çoxu 60 bal toplaya bilər.*

*İmtahan otağında ancaq texniki işçilərdən xüsusi nəzarətçilər olur. Tələbə imtahana qiymət kitabçası və tələbə bileti ilə buraxılır. İmtahana ayrılan vaxt 120 dəqiqədir.*

Tələbə biletdəki sualların düzgün hesab etdiyi cavablarını təsdiq etdikdən sonra imtahanı yekunlaşdırdığını bildirən düyməni basdıqda aralıq imtahanlarının nəticələri də nəzərə alınmaqla (imtahan suallarından ən azı 27 bal toplamaq şərti ilə) onun aldığı qiymət monitorda görünür. İmtahanların nəticələri yerli şəbəkə vasitəsi ilə mərkəzə, fakültə dekanlıqlarına ötürülür.

Qiymətləndirmə sistemi aşağıdakı kimidir:

| | | |
|---|---|---|
| -51 baldan aşağı | - «qeyri-kafi» | - F |
| -51-60 bal | - «qənaətbəxş | - E |
| -61-70 bal | - «kafi» | - D |
| -71-80 bal | - «yaxşı» | - C |
| -81-90 bal | - «çox yaxşı» | - B |
| -91-100 bal | - «əla» | - A |

Tələbə imtahanın nəticəsi ilə razı olmadıqda, imtahandan sonrakı 3 gün ərzində Universitetin Apelyasiya komissiyasına yazılı şəkildə müraciət edə bilər.

Akademik borcu qalan tələbələr bir kurs aşağı qruplarla həmin fənləri yenidən dinləyir, bundan sonra imtahana buraxılır.

## §8. Referatların yazılma qaydaları və sillabuslar

Odlar Yurdu Universitetinin tədris prosesinin daha da səmərəli təşkil olunması üçün referatların yazılma qaydası müəyyən edilmişdir. Referat əlyazma formasında

tələbənin öz xətti ilə yazılır, fənn müəllimi və xüsusi komissiya tərəfindən yoxlandıqdan və təsdiq edildikdən sonra kafedraya təhvil verilir.

Sillabuslar Elmi Şuranın təsdiq olunmuş proqramı əsasında fənn müəllimləri tərəfindən hazırlanır.

Sillabuslar kafedra müdirinin təsdiqindən sonra tələbələrə verilir. (Buna nəzarət kafedralar tərəfindən aparılır.)

Sillabusda hər bir mövzunun qısa planı, istifadə olunmuş ədəbiyyatlar siyahısı, mövzunun ədəbiyyatdakı səhifəsi göstərilir.

Sillabusda göstərilən məşğələ dərsləri referat formasında (3 səhifədən az olmamaq şərtilə) aparılır. Yəni hər bir tələbə tədris olunan fənnin sillabusunu müəllimdən alır və orada göstərilən məşğələ mövzularını referat şəklində yerinə yetirir.

**Əlavə. DSH Sertifikatı almaq üçün İntensiv Alman dili kursları**

Odlar Yurdu Universiteti ilə Zigen Universiteti arasındakı qarşılıqlı əməkdaşlıq çərçivəsində ***DSH (Deutsche Sprachprüfung für den Hochschulzugang)*** – imtahanına hazırlıq məqsədilə 9 aylıq intensiv alman dili kursları Almaniya Universitetlərində təhsil almaq üçün DSH Dil Sertifikatını verir. Kurslar 2003–cü ilin oktyabr ayından etibarən fəaliyyətə başlayıb və artıq 8 ildir ki, uğurla davam etməkdədir. Bu müddət ərzində 1000 nəfərdən çox tələbə və iş adamı kurslarda iştirak etmiş, imtahan vermiş və imtahanda yüksək nəticə göstərən şəxslər DSH sertifikatını əldə etmişlər. Hal-hazırda kursu başa vuran tələbələrdən 55 nəfəri Almaniyanın Zigen Universitetində müxtəlif ixtisaslar üzrə təhsil alır. Kursun iştirakçıları respublikamızın müxtəlif universitetlərində təhsil alan tələbələr, eyni zamanda Almaniyanın müxtəlif şirkətləri ilə əməkdaşlıq edən şirkətlərdə çalışan iş adamlarıdır.

- ***İştirakçılarımız:*** Alman dilini qısa müddətdə öyrənmək istəyən və ya daha da inkişaf etdirmək istəyən tələbələr və iş adamları (18 yaşdan yuxarı)
- ***Üstünlüklərimiz:*** Beynəlxalq miqyasda tanınmış sertifikat veririk. DSH – sertifikatı Almaniyanın və Avstriyanın bütün universitetləri və ali məktəbləri tərəfindən tanınır.
- **Alman dilində dərs vəsaitləri, Almaniyada təhsil almış və təcrübə keçmiş müəllimlər və alman mütəxəssisi tərəfindən keçirilən danışıq dərsləri, Zigen Universiteti tərəfindən keçirilən imtahan, dil səviyyəsinə görə bölünmüş qruplar (12 - 14 tələbə), yüksək səviyyədə oxuma, yazma, dinləmə, anlama.**
- ***Dərs prosesində dil öyrənmənin bütün müasir metodlarından istifadə olunur.***
- ***Həftə sonları tələbələr üçün əlavə danışıq dərsləri keçirilir.***
- ***DSH sertifikatı müddətsizdir.***
- ***Dərs prosesi 4 əsas istiqamət üzrə aparılır:***
  1. Mətni dinləmə və anlama
  2. Mətni oxuma və suallara cavab vermə
  3. İnşa yazma
  4. Qrammatik tapşırıqlar

DSH imtahanı ildə iki dəfə (yanvar və iyun aylarında) alman mütəxəssislər tərəfindən aparılır. DSH imtahanı yazılı və şifahi olmaqla 2 mərhələdən ibarətdir:

Yazılı imtahanı uğurla verən tələbələr şifahi imtahana buraxılmaq imkanı əldə edirlər. DSH sertifikatını əldə etmək üçün hər iki imtahan mərhələsini uğurla vermək vacibdir.

DSH sertifikatı 3 səviyyədən ibarətdir: DSH 1 sertifikatını əldə etmək üçün 57-65%, DSH 2 sertifikatını əldə etmək üçün 66-81%, DSH 3 sertifikatını əldə etmək üçün 82-100% nəticə toplamağınız tələb olunur. DSH 2 və ya DSH 3 sertifikatı Almaniyanın və Avstriyanın əksər universitetlərində tələb olunur. Bəzi universitetlərdə isə

ixtisaslardan asılı olaraq, DSH 1 səviyyəsi də kifayət edə bilər. Bütün bunları oxumaq istədiyiniz universitetlər ilə dəqiqləşdirməlisiniz.

Bu sertifikat həmçinin akademik fəaliyyət, elmi mübadilə və Azərbaycanda fəaliyyət göstərən alman müəssislərində işləmək üçün Sizə böyük dəstək ola bilər.

**DSH intensiv alman dili kursları üçün qeydiyyat ildə iki dəfə aparılır:** sentyabr ayında dərsə başlamaq istəyən iştirakçılar aprel, may, iyun və avqust aylarında qeydiyyatdan keçməlidirlər: yanvar ayında dərsə başlamaq istəyən iştirakçılar isə oktyabr, noyabr, dekabr aylarında qeydiyyatdan keçməlidirlər.

Kursun müddəti: 9 – 10 ay , həftədə 5 dərs, hər dərsin müddəti 3 saatdan ibarətdir.

Məşğələ saatları: 9:30, 15:00, 16:30, 18:30.

Hər qrupda tələbələrin sayı 12-14 nəfərdən ibarətdir.

Ünvan: Odlar Yurdu Universiteti, otaq № 313

Tel: (99412) 447 49 59;

Mob: (99450) 386 45 30; (99450) 200 66 28

Koordinatorlar: Vəfa Xəlilova; Səbuhi Dadaşov




**Ünvan:** 13, Koroğlu Rəhimov küç., Bakı AZ1072

**Tel:** (+994 12) 511 21 04/05

**Fax:** (+994 12) 465 67 05

**E-mail:** oyu_educen@yahoo.com; mail@oyu.edu.az

**Web:** www.oyu.edu.az